# Şəxsiyyət probleminin pedaqoji-psixoloji mahiyyəti

**Natəvan Romik qızı Nəsibli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** nasibli_89@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. S.S. Tağıyeva,
p.ü.f.d., dos. Y.A. Allahverdiyev

**Açar sözlər:** şəxsiyyət, inkişaf, fəallıq, formalaşma, elm, problem, pedaqoji
**Ключевые слова:** личность, развитие, деятельность, формирование, наука, проблема, педагогическая
**Key words:** personality, development, activity, formation, science, problem, pedagogy

Pedaqogika elmində "şəxsiyyət" anlayışının xüsusi yeri vardır. Burada "şəxsiyyət" anlayışı əsas anlayışlar sırasındadır. "Şəxsiyyət" anlayışı son dərəcədə pedaqoji məzmundadır və bütün ictimai elmlərlə, o cümlədən fəlsəfə, sosiologiya və psixologiya ilə öyrənilir. Pedaqoji elmin çərçivəsində öyrənilən şəxsiyyətin pedaqoji mahiyyətinin spesifikası psixoloji nöqteyi-nəzərdən də eyniyyət təşkil edir. Pedaqoji və psixoloji fikir tariximizdə bu sualın ilk cavabını professorlar Ə.S.Bayramov, Ə.Ə.Əlizadə vermişlər. Şəxsiyyəti qiymətləndirmək - şəxsiyyətə çevirmək müəyyən həyat mövqeyi, hər şeydən əvvəl, əxlaqi mövqe tutmaq, öz mövqeyini cəmiyyətin üzvü kimi aydın dərk etmək və onun üçün məsuliyyət daşımaq, özünün əməlləri, işləri, bütün həyatı ilə onu təsdiq (bərqərar) etmək deməkdir. Elmi ədəbiyyatda olan şəxsiyyətin təriflərindən hər biri eksperimental tədqiqatlarla və nəzəri dəlillərlə əsaslandırılmışdır. Ona görə də onu "şəxsiyyət" anlayışı kimi baxılmasın nəzərə almaq lazımdır. Çox vaxt şəxsiyyəti sosial inkişaf prosesində əldə edilmiş sosial və həyati əhəmiyyətli xüsusiyyətlərin birliyində olan insan kimi başa düşürlər. Çox vaxt "şəxsiyyət" anlayışının məzmununa digər insanların münasibətlərində əhəmiyyətli hərəkətləri təyin edən insanın sabit xüsusiyyətlərini də daxil edirlər

Şəxsiyyət problemi elmin müxtəlif sahələrində çalışan müxtəlif insanların, dövlət və ictimai xadimlərin, alim və mütəfəkkirlərin illərlə diqqət mərkəzində dayanan mühüm problemlərdən biri olmuş və müasir dövrdə də öz aktuallığını saxlamaqdadır. Müasir psixologiyada şəxsiyyət, onun fəallığı, formalaşması, strukturu kimi məsələlər, ümumiyyətlə şəxsiyyət anlayışının mahiyyəti barədə müxtəlif fikirlər irəli sürülür. "Şəxsiyyət" sözü Azərbaycan, rus və ingilis dillərində maraqlı və faktiki olaraq eyni etimologiyaya malikdir. Azərbaycan dilində "şəxsiyyət" sözü öz əsasını ərəb sözü olan "şəxs" sözündən götürmüş və hər hansı bir konkret şəxsi, simanı bildirir. Rus dilində "şəxsiyyət" (личность) sözü də "личо", "личина" (üz, sifət) sözləri ilə bağlıdır. İngilis dilində "şəxsiyyət" mənasını ifadə edən "personality" sözü öz əsasında iki latın sözündən-"per" və"sona" sözlərindən götürülmüşdür ki, bu da bir növ "vasitəli danışır" mənasını ifadə edir. Sonralar qədim Yunanıstanda və Roma imperiyasında bu söz teatr tamaşasında aktyorun "maskası" şəklində özünü büruzə vrmişdir. Adətən, səhnə hərəkətindən asılı olaraq "masqa" dəyişilir, aktyor rola daxil olur. Lakin, yalnız xeyli vaxt keçdikdən sonra "persona" sözü hazırki dövrdə daşıdığı məna yükünü daşımağa başlamış, "personality"-"şəxsiyyət" mənasında işlənməyə başlanmışdır. Qeyd edilənlərdən göründüyü kimi, insanın şəxsiyyəti birbaşa və dolayı mənada onun siması, sifətdir. Birbaşa mənada insanın siması, sifəti onun başlıca identifikatorudur. Məhz onun xətləri, formaları, çevrəsi və digər xüsusiyyətləri

əsasında bir adamı başqasından fərqləndirir, onun hansı yaş kateqoriyasına mənsub olduğunu müəyyənləşdirə bilirik. Təsadüfi deyildir ki, şəxsiyyəti eyniləşdirməklə bağlı bütün sənədlərdə onun sifətinin (üzünün) şəkli olması tələb edilir. Bununla yanaşı olaraq, bizim sifətimiz emosiyalarımızın, hisslərimizin, əhvalımızın, vəziyyətimizin, istəklərimizin ifadəsinə çevrilir, o bizə təkcə verbal yolla deyil, qeyri-verbal yolla da, zəngin mimiki imkanlarımızın köməyilə də ünsiyyətə girmək imkanı verir. Dolayı mənada, insan şəxsiyyəti onun "ruhunun", başqa sözlə, onun bütün psixi təzahürünün "sifətidir". İnsana məxsus olan fərdi-psixoloji xassələrin təzahür xüsusiyyətlərinə, onun ünsiyyət üslubuna, davranışına, fikir və ideyalarına görə onu aydın eyniləşdirməyimiz və onun gələcək davranışının istiqamətini proqnozlaşdırmağımız heç kimdə şübhə doğura bilməz. Bütün yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, şəxsiyyət fərdin özünü cəmiyyətlə eyniləşdirməsinə imkan verən davamlı fiziki və psixi xarakteristikasının məcmusundan ibarətdir.

Şəxsiyyət insanın psixoloji siması olub, şüura, mənliyə malik olan, öz hərəkətlərinə cavabdeh, ictimai münasibətlərin fəal iştirakçısı olan adamdır. Şəxsiyyət müəyyən ictimai-tarixi dövrdə yaşayıb fəaliyyət göstərən, gerçəkliyi dərk edib müəyyən istiqamətdə dəyişdirən, ünsiyyətə girməyi bacaran konkret canlı insandır. Şəxsiyyət strukturunun baxılmasında ona adətən qabiliyyətlərini, temperamentini, xasiyyətini, motivasiyasını və sosial məqsədlərini daxil edirlər. Şəxsiyyəti struktur baxımından məqsədlərini izah edək:

Qabiliyyət-fəaliyyətin müxtəlif növlərində insanın müvəffəqiyyətlərini təyin edən insanın fərdi, sabit xüsusiyyətləridir. Temperament-insanın psixi proseslərin dinamik xarakteristikası, xasiyyət-insanın digər insanlara münasibətini təyin edən keyfiyyətdir. Motivasiya-fəaliyyətə həvəsi oyadan səbəblərin məcmusu, sosial məqsədlər-insanların məsləkləridir. Ə.S.Bayramov, Ə.Əlizadə birgə tədqiqatlarında bu barədə göstərirlər. Şəxsiyyət fərdiyyət deyil, necə deyərlər, şəxsiyyətsiz şəxsiyyətdir, başqa sözlə sosial tipdir. İctimai həyatın subyektidir.

Professor Zahid Qaralov şəxsiyyətin psixoloji mahiyyətini tamamlayan hamı üçün arzu olunan insani keyfiyyətlər toplusuna bunları daxil etmişdir: özünüdərk, məxsus olduğu ailəyə, nəslə, millətə, xalqa sədaqət, millətlərarası münasibətlərdə saflıq və reallıq; doğulub böyüdüyü yurd-yuvaya, el-obaya, vətənə, torpağa məhəbbət və hörmət; millətin, vətənin maddi və mənəvi sərvətlərinin müqəddəsliyinə inam və onları zənginləşdirməyə xidmət; halal əmək; təbiət-insan-cəmiyyət qarşılıqlı münasibətlərinin yüksək elmi və mənəvi-etik səviyyədə qurulması; xeyirlə şərin, işıqla qaranlığın qoşa qanad kimi yanaşı getdiyi dünyada ömrünü ancaq xeyrin və işığın qələbəsinə nail olmağa həsr etmək; dədə-baba ocağına, yurd-yuvaya, vətənə bağlılıq və sadiqlik, yer kürəsinin təbiiliyinin qorunub saxlanmasında fəallıq göstərmək; ata-anaya, qardaş-bacıya, bütün qohum-əqrəbaya, uşaqlara və qocalara, qadınlara və xəstələrə qayğı və mehribanlıq, hər cür yardım əli uzatmaq, ətrafında olanların hamısını, bütün insanları xeyirxahlığa dəvət etmək, mümkün qədər onları şər işlərdən uzaqlaşdırmaq, nümunəvi ər, xanım, ata, baba olmaq, namuslu və qeyrətli övladlar yetişdirmək; dünyadan köçüb gedənlərdən sonra öz yerində daimi iz qoymaq(sağlam ideyalar, nümunəvi davranış tərbiyəsi, hamının istidə edə biləcəyi maddi və ya mənəvi dəyər və s) özünüdərk, özünəinam, insanın hər şeyə qadir olması imkanına inam; kainatın, təbiətin öz daxili, əbədi, obyektiv və inkişafın ibtidaidən ailəyə doğru getməsi gerçəkliyinə inam; ümumbəşəri dəyərlərə inam, hörmət, onları əks etmək və qiymətləndirmək, qoruyub saxlamaq və zənginləşməsinə kömək göstərmək (s.78). Beləliklə, şəxsiyyət-ictimai əlaqələrdə və münasibətlərdə özünü büruzə verən, insanın əxlaqi hərəkətlərini təyin edən, onun və əhatə edənlər üçün əhəmiyyətli mənasını daşıyan insanın sabit sosial cəhətdən əsaslandırılmış psixoloji xarakteristikaların sistemində götürülən konkret insandır.

Qeyd etmək lazımdır ki, elmi ədəbiyyatlarda "şəxsiyyət" anlayışının məcmusuna bəzən insanın hərəkət, münasibət fəaliyyətinin təşkilinin bütün səviyyələri o cümlədən genetik və fizioloji səviyyələrini daxil edirlər. Hər bir insan bioloji növün nümayəndəsi kimi müəyyən mənada anadan gəlmə xüsusiyyətlərə malikdir, yəni onun bədən quruluşu düz yerişinin imkanlarına səbəb ola bilər. Yəni beyin strukturu ağlın inkişafını təmin edir. Belə ki, əlin quruluşu əmək alətlərinin istifadə edilməsi imkanını nəzərdə tutur. Konkret insanın insan soyuna aidiyyəti "fərd" anlayışında göstərilib. Beləliklə, "fərd" anlayışı insanı müəyyən bioloji xüsusiyyətlərin daşıyıcısı kimi xarakterizə edir. Fərd kimi dünyaya gələrkən, insan ictimai qarşılıqlı münasibətlərin və proseslərin sisteminə daxil olur, bunun nəticəsində isə xüsusi sosial keyfiyyəti əldə edir-şəxsiyyət olur. Bu ona görə baş verir ki, insan ictimai münasibətlərin sisteminə daxil olarkən subyektin-fəaliyyət prosesində formalaşan və inkişaf edən idrakının daşıyıcısı rolunda çıxış edir.

Şəxsiyyəti fərqləndirən səviyyə-məqsədə nail olmada özünü göstərir. Qarşıya qoyulmuş məqsədə nail olmaq işindəki uğursuzluq, müvəffəqiyyətsizlik də çox müxtəlif təsir bağışlaya bilər. Müvəffəqiyyətsizlik, bəzi adamlarda inilti, məyusluq, qüssə, düzgün və əzgin əhval doğurduğu halda, başqalarında gərgin hissinin yüksəlməsinə, özünə, öz bacarıqsızlığına qəzəblənmə hissinin əmələ gəlməsinə səbəb olur. Bu axırıncı hiss, insanın bütün qüvvələrini səfərbərliyə alaraq, necə olursa-olsun, məqsədə nail olmağa məcbur edir. Öz növbəsində bütün bu üç səviyyələrin inkişaf xüsusiyyətləri konkret insanın təkraredilməzliyini və orijinallığını xarakterizə edir, onun fəaliyyətini təyin edir. Beləliklə, "şəxsiyyət" anlayışı insanın təşkilinin çox əhəmiyyətli səviyyələrindən birini, sosial məxluqun inkişaf xüsusiyyətlərin xarakterizə edir.

Şəxsiyyət haqqında olan araşdırmalardan Ə.Ağayevin, N.Kazımovun tədqiqatlarını fundamental hesab etmək olar. Professor Ə.Ə.Ağayev çox maraqlı pedaqoji fikirlərə istinad etmiş, mənəvi dəyərlərimizin şəxsiyyətin inkişafına təsirlərinin (formalaşması) tədqiqi ilə bağlı bir sistemi yaratmışdır. O, göstərir ki, ictimai inkişaf prosesində insan şəxsiyyətə çevrildikcə onun özünəməxsus(təkrarolunmaz) həyat tərzi və öz daxili aləmi formalaşır. Psixologiyada bu mühüm elmi faktı ifadə etmək üçün fərdiyyət anlayışından istifadə olunur. İnsan şəxsiyyəti fəaliyyətində ifadə olunur və eyni zamanda fəaliyyət onun şəxsiyyətini formalaşdırır. Fəaliyyətin vahid, qarşılıqlı əlaqəyə malik olan motivlər sistemi şəxsiyyətin psixoloji əsasını təşkil edir. Şəxsiyyətin formalaşmasının mənbəyini onun tələbatı təşkil edir. Şəxsiyyətin probleminin tədqiqində və şərhində mübahisəli məsələlər çoxdur. Hər bir elm sahəsi şəxsiyyətə öz prizmasından baxır, öz tədqiqat obyekti baxımından yanaşır. Əlbəttə, bu, təbiidir. Yanaşmalardakı müxtəlif anlam və mövqeləri də nəzərə alsaq, fikirlərin rəngarəngliyi aydın görünür.

Psixoloq A.Kovalyov digər bir çox psixoloq kimi, şəxsiyyət probleminə psixoloji baxımdan kənara çıxmır. O, şəxsiyyəti strukturuna psixi prosesləri(duyğu, qavrayış, təsəvvür, təxəyyül və s.), psixi xassələri (temperament, yaddaş və s.), şəxsiyyətin psixi vəziyyətini (normal, qeyri-normal, effekt, ekstaz halı, bədbin və ya nikbin hal və s.) daxil edir. Sovet psixoloqları şəxsiyyəti bir fərd kimi insan kimi qəbul edir və onun təlim-tərbiyə prosesində inkişaf edərək kamil insan–şəxsiyyət səviyyəsinə yüksəlməsinə cəhd göstərmişlər. Şəxsiyyət isə yalnız fərd deyil, o ictimai münasibətlərin məcmusundan nəşət tapmış sosial varlıqdır. Deməli, ictimai-tarixi kateqoriyaya malikdir. İnsana məxsus bütün keyfiyyət və qabiliyyətlərin tarixən daşıyıcısıdır. Tədqiqatçı Ş.Qasımlının belə bir fikri ilə şərikik ki, psixoloji keyfiyyət, xassə və hallar şəxsiyyətin ilkin səviyyəsinin xarakteristikasına aid edilə bilər, həm də onlar yalnız müəyyən sosial zəmində formalaşa və inkişaf edə bilərlər.

Filosof F.Qasımzadə qeyd edir ki, "insan və şəxsiyyət" - heç də tam eyni olan anlayışlar deyil. Mahiyyətcə çox yaxın olsalar da bir deyildir. Hələ hər bir adam, hər bir şəxs şəxsiyyət

demək deyildir. Doğrudur ayrılıqda hər bir adam, hər bir kəs təkrar olunmayan fərdiyyətə malikdir. Amma, eyni zamanda, onda insan nəslinə, bioloji bir varlıq kimi bəşər övladına xas olan mahiyyət, ümumillik də vardır. İnsan yalnız mənlik şüuruna yiyələndikdə, öz sosial vəzifələrini dərk etdikdə, başa düşdükcə özünü tarixi prosesin subyekti kimi fəhm etdikdə şəxsiyyət olur. Şəxsiyyətin təşəkkülü, formalaşması ictimai diferensiasiya prosesilə, hər bir fərdin öz şəxsi hüquq və vəzifələri baxımından kollektivdən (təkin ümumidən) ayrılması (seçilməsi, fərqlənməsi) ilə bağlıdır. Məhz fəaliyyət prosesində insan cəmiyyətdə şəxsiyyət kimi formalaşır. Şəxsiyyətin strukturunu təşkil edən mühüm elementlərdən biri də ünsiyyətdir. Ünsiyyət ictimai münasibətlərin fərdiləşmiş, şəxsi-psixoloji konkret forması ictimai münasibətlər isə fəaliyyətin zəruri əsasıdır.

Şəxsiyyətin strukturunu təşkil edən üçüncü mühüm element onun şüurudur. İnsan şüuru bütün mərhələlərdə, habelə mənlik şüuru çox da insanın xarici aləmə olan münasibəti, bu aləmdə onun yerini aydınlaşdırlmaqla yanaşı insanın özünə münasibətini də əks etdirir. "Özün özünü dərk et" tövsiyəsi qədim dövrün ictimai və fəlsəfi fikrinin möhkəm daşıyıcılarından biri olmuşdur. İnsan özünün sosial, əqli, əxlaqi, psixoloji imkan və keyfiyyətlərini nə qədər dərindən dərk edər və bu idrakın nəticələrindən əməli fəaliyyətində nə qədər səmərəli istifadə edərsə onun şəxsiyyət kimi mahiyyəti və məzmunu o qədər zəngin olar, onun azadlığının dairəsi o qədər geniş olar.

Bu gün şəxsiyyətin strukturunun tərkib elementi hesab edilən fəaliyyət, ünsiyyət, şüur Azərbaycan ictimai-pedaqoji fikir tarixində hələ qədim dövrdən şəxsiyyətin strukturunun əsas tərkib elementləri hesab edilmişdir. İntəhası onun sırası şüur, ünsiyyət və fəaliyyət kimi götürülmüşdür. İnsana inkişaf üçün verilmiş bu üç keyfiyyət onu inkişaf etdirmiş, şəxsiyyət kimi formalaşma səviyyəsinə çatdırmışdır. Şəxsiyyət - çoxsaylı amillərin mürəkkəb təsirinin və qarşılıqlı təsirinin nəticəsi kimi meydana çıxır. Fərd inkişaf edir, insan təkmilləşir, yetkinləşir, formalaşıb şəxsiyyətə çevrilir. Şəxsiyyətin formalaşması-obyektiv və subyektiv, təbii və ictimai, daxili və xarici, insanların iradə və şüurundan asılı olan və olmayan amillərin birlikdə təsirinin nəticəsidir. Şəxsiyyətin qərarlaşması və inkişaf prosesinə birbaşa, yaxud dolayı yolla təsir göstərən bütün amillər "formalaşma" anlayışına daxildir. Şəxsiyyətin formalaşması dedikdə, şəksiz, oraya insanın yaşadığı ətraf mühitin onun şəxsiyyətləşməsinə təsiri, insanın bioloji genetik və psixoloji keyfiyyətlərinin (beyin quruluşunun, irsən aldığı genetik informasiyanın, təfəkkür tipi və psixoloji temperamentinin və s.) təsiri, elmi-texniki və sosial tərəqqi amillərinin təsiri daxildir. Bir sözlə, şəxsiyyətin formalaşması anlayışı onun qərarlaşması və inkişaf prosesini bütövlükdə əks etdirir.

İnsan nə qədər kamilləşirsə, nəzəri biliyini, təcrübi hazırlığını nə qədər artırırsa artırsın, ömrün hansı mərhələsində yaşayırsa yenə də hər gün öyrənir, hər gün inkişaf edir və elə buna görə də formalaşma daimi proses rolunda çıxış edir. Şəxsiyyət sosial doğuluşu insanın ilk faydalı işlərindən, özünütanıma müstəqilliyində, vəzifə borclarını yerinə yetirməyə başlamasında təsdiqlənir, o fərd, bioloji mövcudluğundan ictimai münasibətlər daşıyıcısı, sosial varlıq mövcudluğuna yüksəlir və kamilləşə-kamilləşə şəxsiyyət missiyasını yerinə yetirir. Məhəmməd peyğəmbərin "doğulandan qəbir evinə qədər öyrənmək" tələbi də elə bu prosesə uyğun olaraq verilib.

**Məqalənin aktuallığı.** Pedaqogika elmində xüsusi əhəmiyyət kəsb edən "şəxsiyyət" anlayışına alimlərimizin nəzəri cəhətdən öyrənilməsi baxımından məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə şəxsiyyət probleminin pedaqoji-psixoloji mahiyyəti bir daha araşdırılmaqla bu kimi vacib məsələyə Azərbaycan alimlərinin yanaşmaları sistemli şəkildə təhlil olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən orta ümumtəhsil məktəblərinin müəllimləri, tələbə və magistrantlar, eləcə də praktik psixoloqlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abbasov A.N. Pedaqogika. Bakı: Mütərcim, 2013.
2. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı, 2002.
3. Seyidov F.Ə. Soykökümüzdən gələn pedaqoji fikir. Bakı, 2004.
4. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Bakı, 2012.
5. Qasımova L.N. Məktəblilərin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi təcrübəsindən. Bakı, 2004.

**Н.Р. Насибли**

## Педагогическая и психологическая сущность проблем личности

## Резюме

Личность - это человек, который обладает психологической индивидуальностью и является активным участником общественных отношений, имеющих чувство собственной значимости. Человек - это человек, который жил и работал в определенное время, способен понимать реальность и изменения в определенном направлении, а также общаться.

**N.R. Nasibli**

## Pedagogical and psychological essence of personality problems

## Summary

A personality is a person who has a psychological personality and is an active participant in social relations with a sense of self-worth. A person is a person who lived and worked at a certain time, is able to understand reality and changes in a certain direction, as well as communicate.

**Redaksiyaya daxil olub:** 11.02.2020